BUILDING TRUST

# MƏHSULUN MƏLUMAT VƏRƏQİ

# Sikafloor® SynTop-430

(köhnə adı MTop 430)

Korund Aqreqatlı Toz Beton Sərtləşdiricisi

## TƏSVİR

Sikafloor® SynTop-430, aşınmaya davamlı döşəmələr üçün təzə betonun və ya şapların səthinə səpilərək və hamarlanaraq tətbiq olunan korund aqreqatlı toz sərtləşdiricidir.
Sikafloor® SynTop-430, beton döşəmələri aşınmaya, zərbəyə qarşı dayanıqlılıq, adı betona nisbətdə kimyəvi maddələrə, yağlara, yuyucu vasitələrə və hidravlik mayelərə qarşı daha yüksək müqavimət yaradan döşəmə örtük materialıdır.

## İSTİFADƏ YERLƏRİ

Sikafloor® SynTop-430, döşəmənin orta və sıx hərəkətə məruz qaldığı və tozlanmayan səthin tələb olunduğu sahələrdə dayanıqlığı təmin etmək istifadə edilir. Beton döşəmələrin performansını yaxşılaşdırır və səthini gücləndirir.

- Emalatxanalar
- Elektrik stansiyaları
- Qarajlar və avtoparklar
- Anbarlar və yükləmə sahələri
- Zavodlar və fabriklər
- Gəmiqayırma zavodları
- Təyyarə anqarları və yollar
- Helikopter meydançaları

## ÜSTÜNLÜKLƏRİ

- Hazır qablaşdırılmış toz qarışım
- Təzə betona monolitik şəkildə tətbiq olunur
- Sürətli tətbiq və bitirmə ilə zamana qənaət edilir
- Tətbiq və təmizlik asanlığı
- Dərz kənarlarına artıq material əlavə etməklə dərzlərin daha yaxşı qorunması təmin edilə bilər
- Aşınma və təsir müqaviməti adi betondan üstündür
- Qeyri-oksidləşdirici
- Sürüşməyə davamlı səth bitiş əldə edilə bilər
- Eyni şəraitdə betonla müqayisədə yüksək keçirməzlik
- Sikafloor® SynTop-430 döşəmə səthinin ayrılmaz bir hissəsine cevrilir
- Tozumaz və sərfəli örtük tətbiqidir
- Daxili və xarici istifadə üçün uyğunluğu
- Uzun ömürlü performans

## TƏSDİQLƏR VƏ SERTİFİKATLAR

AZS Uyğunluq Sertifikatı

## MATERIAL MƏLUMATI

| | |
|---|---|
| **Kimyəvi əsası** | Qeyri-metal aqreqatlar, kimyəvi əlavələr, piqment və sement |
| **Qablaşdırma** | 25 kg kraft torba |
| **Saxlama Müddəti** | Doğru saxlama şərtlərində istehsal tarixindən etibarən 12 ay. |
| **Saxlama Şərtləri** | Məhsul bağlı, zədələnməmiş, açılmamış qablaşdırmada, quru şəraitdə +5°C ilə +35°C arasında olan temperaturda, doğru anbarlama şərtlərində saxlanmalıdır. Birbaşa günəş işığından və dondan qorunmalıdır. Tövsiyə olunan saxlama şərtlərinə əməl edilməməsi məhsulun və ya qablaşdırmanın vaxtından əvvəl xarab olmasına səbəb ola bilər. |

## TEXNİKİ MƏLUMATLAR

| | | |
|---|---|---|
| **Aşınma müqaviməti** | ~1.34 g (7 günlük bərkimə)<br>A6 (0-6 cm³/50 sm²), 5 kq/m²-də tətbiq edildikdə, müqayisəli beton nümunəsindən > 300% daha çox aşınma müqaviməti sahib olur. | (ASTM C1353-98) |
| **Zərbə dayanıqlığı** | 0.15 mm - Heç bir çat və ya parçalanma əlaməti müşahidə edilmədi | (MIL-D-3134 J (NAVY)) |
| **Sıxılma müqaviməti** | C40 (40-80 N/mm²) | |
| **Bükülmə gücü** | F5 ( 5-15N/mm²) | |
| **Kimyəvi dayanıqlıq** | Tövsiyələrə uyğun quruduqda motor yağlarına, mineral yağlara, 10%-li duz məhlullarına, dəniz suyuna, 25%-li soda məhluluna davamlıdır. | |

## TƏTBİQ MƏLUMATI

| | |
|---|---|
| **Sərfiyyat** | İstifadə miqdarı əsasən 3 – 7 kq/m² arasında olur, lakin əksər sənaye tətbiqləri üçün min. 5 kq/m² sərfiyyat tövsiyə olunur. Qeyd: Bu istehlak məlumatları nəzəri xarakter daşıyır və səthin məsaməliliyinə, səth profilinə, səviyyə dəyişikliklərinə, itgi və ya hər hansı digər dəyişikliklər daxil deyil. Xüsusi sahə şərtləri və təklif olunan tətbiq avadanlığına bağlı olaraq dəqiq istehlakı hesablamaq üçün məhsulu sınaq sahəsində tətbiq edin. Ətraflı məlumat üçün Sika Texniki Xidmətlər Departamenti ilə əlaqə saxlayın |

## MƏHSUL MƏLUMATLARININ ƏSASLARI

- Bu məlumat vərəqində göstərilən bütün texniki məlumatlar laboratoriya sınaqlarına əsaslanır. Faktiki ölçülmüş məlumatlar nəzarətimizdən kənar vəziyyətlərə görə dəyişə bilər.

## DİQQƏT EDİLMƏLİ MƏHDUDİYYƏTLƏR

- Beton sərtləşdirici tətbiqi təcrübəli peşəkarlar tərəfindən aparılmalıdır.
- Toz sərtləşdirici tətbiqləri birbaşa günəş şüası və/ və ya isti külək altında aparılmamalıdır. Ək halda “bərkimiş sərt qabıq” -yəni səthin ilk 5–10 mm hissəsinin quruyub, altındakı betonun hələ də yaş qalmasının səbəb olacaqdır. Bu hal həmdə səthin mala ilə işlənməsi zamanı qopmasına səbəb olur.
- Bütün beton və şap tətbiqlərində olduğu kimi, kürləmə son dərəcə vacibdir və səthin işlənməsi tamamlanan kimi dərhal həyata keçirilməlidir.
- Növbəti qat örtüklər və bitirmə materialları tətbiq oluna bilər, lakin bu, istifadə edilən kürləmə materialına, səthin teksturasına və digər amillərə bağlıdır (məlumat üçün Sika Texniki Xidmətləri Şöbəsinə müraciət edin).
- Həddindən artıq sürətli quruma nəticəsində səthin korlanması: Tətbiq zamanı ətraf mühitin şərtləri səbəbindən çatlama və rəng fərqləri yarana bilər. Məhsulu güclü külək və ya hava axını olan şəraitdə tətbiq etməyin. Döşəmə işlərini mümkün qədər təmiz və ətraf mühit təsirlərindən qorunan şəraitdə aparın. Məhsul +5°C-dən aşağı və +30°C-dən yuxarı temperaturlarda tətbiq edilməməlidir.
- Bərabər olmayan tətbiq nəticəsində zəif bitirmə: Səthin qeyri-bərabər işlənməsi istənilməyən nəticələrə səbəb ola bilər. Məhsulu bərabər şəkildə tətbiq etdiyinizə və düzgün zamanlama və hamarlama texnikalarından istifadə etdiyinizə əmin olun.
- Nisbi rütubətin 40 %-dən aşağı olması: Bu halda səthdə duz çıxması (efflorescence), ləkələnmə baş verə bilər.
- Nisbi rütubətin 80 %-dən yuxarı olması: Suyun ayrılması (bleeding), daha yavaş kürləmə və bərkimə müşahidə oluna bilər və bu halda səthin işlənməsi üçün əlavə vaxt tələb oluna bilər.
- Tətbiq vaxtına təsir edən şərtlər: Quru səpilmə məhsullarının tətbiq vaxtı betonun tökülməsinə təsir edən bütün dəyişənlərdən asılıdır və buna görə də mövcud sahə şəraitdən asılı olaraq əhəmiyyətli dərəcədə dəyişə bilər.
- Sikafloor® SynTop-430 sərtləşdirici məhsulun betonun yalnız zərbəyə və aşınmaya qarşı dayanıqlığını artırır, tətbiq olunan betonun sıxılma, əyilmə, çəkmə dəyərlərinə təsir etmir. Buna görədə istifadə olunan beton ona təsir edəcək yüklərə uyğun dizayn edilməlidir.
- Şap betonu tətbiqlərində, çatlamaya qarşı döşəmə nəzarət dərzlərinin, beton elementləri ətraflarında və divar birləşmələrində düzgün dərz yerləşdirməsinə diqqət edilməlidir.

## ƏTRAF MÜHİT, SAĞLAMLIQ VƏ TƏHLÜKƏSİZLİK

İstifadəçi, hər hansı məhsuldan istifadə etməzdən əvvəl ən son müvafiq Təhlükəsizlik Məlumat Vərəqi (SDS) ilə tanış olmalıdır. Təhlükəsizlik Məlumat Vərəqi (SDS), fiziki, ekoloji, toksikoloji və digər təhlükəsizliklə bağlı məlumatları təqdim edir, kimyəvi məhsulların təhlükəsiz istifadəsi, saxlanması və utilizasiyası ilə bağlı məlumat və məsləhətlər verir.

# TƏTBİQ TƏLİMATLARI

## SƏTHİN KEYFİYYƏTİ

ACI 201 - 2R77 & ACI 302-1 R-89 standardının tələblərinə uyğun olaraq, düzgün nisbətlərdə hazırlanmış Beton Qarışım Dizaynı əsasdır. Beton təchizatçısı; sement miqdarının, su/sement nisbətinin, slamp dəyərinin minimum standard tələblərini qarşıladığından əmin olmalıdır : Sement (SRC və ya OPC): Min. 320 kg / m³

| | |
|---|---|
| Su:sement nisbəti | Maks. 0.50<br>Min. 0.40 |
| Slamp/ Betonun çökmə dəyəri | Ideal 75 mm |
| Sıxılma Müqaviməti | Min. 31 N/mm² |

Betonda ayrılma (segregasiya) və suyun səthə çıxması (bleeding) baş verməməli, həmçinin beton 3 %-dən artıq hava ehtiva etməməlidir.
Mikrosilika tərkibli betona tətbiq zamanı, quru səpilmənin düzgün zamanda tətbiq edilməsi üçün xüsusi diqqət göstərilməlidir.
Betonun yerləşdirilməsi və optimal performansı üçün Sikament® və ya Sika® Plastiment® tipli su azaldıcı qatqıların istifadəsi tövsiyə olunur.
Sikafloor® SynTop-430 məhsulunun tətbiq ediləcəyi şapların (screed) minimum qalınlığı 75 mm olmalıdır.
Beton töküldükdən sonra, səth düzbucaqlı alətlə (straightedge) hamarlanmalı, sonra isə vibrasiya edilməlidir. Daha sonra səth taxta mala düzləşdirilməli, lakin səthin tam bağlanmamasına diqqət edilməlidir. Səthdə yaranan artıq su aradan qaldırılmalıdır (süngər tipli uducu vasitələrdən istifadə etməyin). Bundan sonra, Sikafloor® SynTop-430 məhsulu gözlənilən dilatasiya və konstruksiya birləşmə yerlərinin yerləşəcəyi sahələrdə (təxminən 80 mm enində zolaqlarla) səpin. Bu məhsulu taxta mala ilə səthə malalayın.

## TƏTBİQ METODU/ALƏTLƏR

Sikafloor® SynTop-430 ideal olaraq nə çox yaş, nə də çox quru olmayan bir səthə tətbiq edilməlidir.
Məhsulun tətbiq olunma vaxtını ətraf mühitin temperaturu müəyyən edəcəkdir.
Beton plitə üzərində yerləşdirilmiş dayaq konstruksiyasından (trestle) istifadə olunaraq, məhsul əl ilə yaş beton səthinə səpilir.

Tətbiq iki mərhələdə aparılır:

- Tələb olunan miqdarın üçdə ikisini beton üzərinə bərabər şəkildə səpin.
- Səpilmiş materialın beton səthindən nəmi özünə çəkməsinə icazə verin – səthdə bərabər tünd rəng yaranacaq.
- Hamarlayıcı ilə Sikafloor® SynTop-430 məhsulunu betona mala edin və səthə tam inteqrasiya olmasını təmin edin.
- Qalan məhsulu tətbiq edin. Yenə də, mala etməzdən əvvəl məhsulun tünd rəng aldığından əmin olun.
- Səth insan çəkisini daşıya biləcək qədər bərkidikdə, lakin yalnız azca (0.5-1.5 cm )iz buraxacaq qədər, Sikafloor® SynTop-430 mexaniki hamarlayıcı (power trowel) ilə bitirilməlidir. Bu zaman hamar, lakin sürüşməyə qarşı dayanıqlı bir səth əldə edilə bilər. Səthi həddən artıq işləməkdən çəkinin.
- Əgər polad mala ilə əl ilə bitirmə işləri aparılacaqsa, bu, beton piyada hərəkəti üçün kifayət qədər möhkəm olana qədər aparılmalıdır.

## KÜRLƏNMƏSİ

Kürləmə prosesi, son mala əməliyyatı tamamlandıqdan dərhal sonra həyata keçirilməlidir. Bu, ya polietilen örtüklərlə səthin örtülməsi, ya da kürləmə materialının tətbiqi ilə həyata keçirilə bilər. Sika® Antisol®-181 məhsulunun 1 litr / 5 m² nisbətində istifadəsi tövsiyə olunur. Tətbiq olunacaq sonrakı işləmə növünə görə uyğun kürləmə materialı seçimi dəyişə biləcəyindən, düzgün seçimlə bağlı əlavə məlumat üçün Sika Texniki Xidmətlərinə müraciət edin.

# HÜQUQİ QEYDLƏR

Bu məlumat vərəqi, xüsusəndə, Sika məhsullarının tətbiqi və son istifadəçi üçün tövsiyyələri, doğru anbarlama, qarışdırma, və standard ətraf mühit şəraitində Sika təlimatlarına uyğun tətbiq olunmaqla əldə edilmiş bilik və təcrübəyə əsaslananan məsləhətlərdir. Praktikada, materiallardakı, səthlərdəki və faktiki sahə şərtlərindəki fərqliliklər səbəbi ilə, bu məlumat vərəqindən, hər hansı yazılı tövsiyələrdən və ya təklif olunan hər hansı digər məsləhətdən xüsusi bir tətbiq üçün uyğunluğu ilə bağlı nə bir zəmanət, nə də hüquqi münasibətdən irəli gələn hər hansı öhdəlik götürülə bilməz. Məhsulun istifadəçisi məhsulun nəzərdə tutulan xüsusi tətbiq və məqsəd üçün uyğunluğunu test etməlidir. Sika öz məhsullarının xüsusiyyətlərini dəyişdirmək hüququnu özündə saxlayır. Üçüncü şəxslərin mülkiyyət hüquqlarına riayət edilməlidir. Bütün sifarişlər mövcud satış və çatdırılma şərtlərimizə uyğun olaraq qəbul edilir. İstifadəçilər, məhsulun yerli Məhsul Məlumat Vərəqinin ən son nüsxəsinə istinad etməlidirlər. Məhsul Məlumat Vərəqini aze.sika.com internet səhifəsindən və ya sorğu əsasında info@az.sika.com poçt adresindən təmin edə bilərlər.

**Sika Azərbaycan MMC**
Sumqayıt Kimya Sənaye Parkı
Kimyaçılar küç.1, AZ5002
Sumqayıt E119
Telefon: +99412 585 10 11
Faks: +99412 585 10 12